# "AZMIŞAM ÖZ İÇİMDƏ"

## Laçınlı şair Adil Cəfakeşə məktub

**Yazıya çox uzaqdan başlayacam, lap uzaqdan... Ona görə ki, həmsöhbət olduğum Adil Cəfakeş öz şeirlərilə, oz ovqatıyla da çox uzaqlardan gələn adamdı. Ona hansı tərəfdən baxıramsa, yenə yaxın olduğu qədər də uzaqda dayandığını görürəm. Əvvəl bunun fərqinə varmırdım və mənə elə gəlirdi ki, hardasa hissə qapılıram, ya da hansısa bir fikrin təsiri altındayam. Lakin Adili oxuduqca, imzasını izlədikcə və ən vacibi özü ilə oturub həmsöhbət olduqca gördüm ki, Adil Cəfakeş uzaqdan, qədimdən gəlir. Yəni Laçının çal-çağırlı, hay- haraylı, sazlı-sözlü, elli-obalı, Dədəm Qorquddan başlayan tarixindən gəlir. Bu tarixin, bu yaddaşın cizgiləri, hərarəti, ətri, illah da ki, bal kimi ağız tamı hopubdu Adilin ruhuna, söhbətlərinə, yazılarına. Ona görə də vərəqi çevirəndə qəflətən dünəninlə qarşılaşmış kimi donub qalırsan yerində. Və həmin an sənin yaddaşının qapısını Adilin səsi döyür. O səs:**

**Əlim çatmayan dağlara**
**Salam eey, salam eey!**
**Heç demirsiz hardadı**
**Balam eey, balam eey!**

**Tavanım tökülübdü,**
**Kün-bucaq sökülübdü.**
**Qamışdan tikilibdi,**
**Qalam eey, qalam eey!**

**Bağlayıblar əlimi,**
**Bəm ediblər zilimi**
**Kəsibdilər dilimi,**
**Lalam eey, lalam eey!**

**Alın yazım yazımı,**
**Bəxtim bundan razımı?**
**Əlim yatmır sazımı,**
**Çalam eey, çalam eey!**

**Köhnə dəbdi lal dəbim,**
**Yox pul kisəm, yox cibim.**
**Harda qaldın ay bibim,**
**Xalam eey, xalam eey!**

**Zərim qalıb "sə-birdə",**
**Ömür deyil ömür də.**
**Məni yemir qəbir də,**
**Kalam eey, kalam eey!**

Sizi de yə bilmərəm, mən bu şeiri, daha doğrusu, Adilin bu içdən gələn ağıya, bayatıya, laylaya çevrilmiş duyğularını dinlədikcə ölün dirilirəm. Elə bilirəm ki, Adilin dağlardan uzaq düşməsinin günahkarı mənəm. Elə bilirəm ki, günahkar olduğumu Adil bilir, amma üzümə vurmur. Ona görə vurmur ki, hər gün ölüb dirilməyimi istəyir... hər gün onun əzablarıyla bir yerdə olmağımı arzualyır... Hətta mənə gəlib çatsın deyə üzünü haməya tutub söyləyir ki:

**Oxuyun, tərif etməyin,**
**Mərsiyədi, ağıdı bu!**
**Laçınımın həsrətidi,**
**Xocalımın dağıdı bu!**

Çox hökmlə, həm də çox ərklə deyilib bu fikir. Onu qarşısından geri çəkilmək, ona etiraz etmək mümkün olmur. Və beləcə, məcbur olub yenə qayıdırsan Adilin dərslərinin ocaq başına, yenə əlini həmin ocağın oduna-közünə tutursan. Və səninlə üz-üzə oturan Adilin söhbətını qulaq asırsan. Adil gecə yuxusuna girmiş kəndindən danışır, sən də qulaq asırsan. Onu dinləyə-dinləyə Adilin evinin həyət-bacasından tutmuş otaqlarına, əl damına qədər hər yerə baş çəkirsən. Yük üstündə yatılı qalmış ala pişikdən tövlədəki buzovdan, danadan, hindəki toyuq-cücədən, qaymaqdan, nehrədən, nənəsinin cəhrəsindən, babasının ovxarlı dəhrəsindən, atın ipindən... bir sözlə, kənd adımına aid hər şeydən, hər kəsdən danışır Adil. Hətta qonşuları Bahadur kişini də unutmir və sonda da deyir ki:

**Adiləm, mindiyim yəhərə kimi,**
**Lap boz eşşəyimdən kəhərə kimi.**
**Keçmişi yaşadım səhərə kimi,**
**Bu gecə yuxuma girmişdi kəndim.**




Bu yuxudan ayılmaq kimə rahatlıq gətirər? Kimi öldürüb diriltməz? Kimi havalandırmaz? Suallar çoxdur. Və mən də bütün bu sualların cavabını özümdə axtara-axtara oxuyuram Adili. Adil də məndən soruşur ki, oxuya bilirsənmi, dediklərim, yazdıqlarım sənə çatırmı? Mən də onun haqlı suallarına ya susmaqla, ya da onun öz misralarıyla cavab verməli oluram. Adil özü yazır ki:

**Əl atıb tutmağa yoxdu dəstəyim,**
**Mən kimi çağırım, kimi səsləyim?**
**Adiləm, baş tutmur heç bir istəyim,**
**Bu nə möcüzədi, nə sirdi məndə?**

Və yaxud:

**Mən zamandan dərd almışam havayı,**
**Ömrüm, di dur qov həftəni, qov ay,**
**Cəfakeşəm hələ məndən savayı,**
**Donan yox bu soyuqluğun içində.**

Adil Cəfakeşin "Azmışam öz içimdə" kitabını oxuduqca mənə elə gəlir ki, onun bütün istək və arzusu xalqın öz diliylə unutmaqda olduğu dəyərləri özünə çatdırmaqdı. Yəni bu şeirin müxtəlif üslublarında süstlənən fikirlər bütövlükdə folklorumuzun qoşmasını, bayatısını, gəraylısını, təcnisini, laylasını, hətta müəyyən məqamda ağılarını belə diriltmiş olur. Yəni bu üslubların ölümsüzlüyü ortaya qaytarılır, milli olan yaradıcılıq çeşidlərimiz yenidən qanadlanır. Təbii ki, bunu kimlərsə köh nəlik, müasir şeirdən uzaqlaşma kimi görüb qeyd edə bilər. Amma mən bu kökə söykənməli hər zaman yüksək dəyərləndirmişəm. Çünki burda xalqın özü var, özlüyü və sözlüyü ortadadı. Elə bax, bu şüirin özündəki kimi:

**Ətirli dağ çiçəyim,**
**Təzə tərimsən mənim.**
**Məni məndən alanım,**
**Nazlı pərimsən mənim.**

**Əl çatan bucağımsan,**
**Qoynumsan, qucağımsan.**
**Sən sevgi ocağımsan,**
**Sevgi pirimsən mənim.**

**Ay gövhərim, ay incim,**
**Sən xoş anım, sevincim.**
**Siyahıda birincim,**
**Elə birimsən mənim.**

**Qəlbim sənə şah yeri,**
**Gəl, gah otur, gah yeri.**
**Eşqimin pənah yeri,**
**Ümid yerimsən mənim.**

**Nə gizlədim, nə danım,**
**A axşamım, a danım.**
**Eşq nərdimdə udanım,**
**Qoşa zərimsən mənim.**

**Sızdım, bulaq tək sızdım,**
**Nə çaşdım, nə yol azdım.**
**Səni şövq ilə yazdım,**
**Şah əsərimsən mənim.**

Bəli, Adil Cəfakeş Laçınsız həyatını Laçınlı etmək üçün sözə sığınıb, qələmə söykənib. Ona elə gəlir ki, elə söz də, qələm də Adilə pənah gətirib, mehr salıb. Yoxsa Laçınsız qalan söz və qələm çoxdan qurumuşdu.

Qələminə, sözünə qüvvət, Adil Cəfakeş! Onları təkcə Tanrı umuduna buraxma, ürəyinə də tapşır...

**Əbülfət MƏDƏTOĞLU**